# II Beynəlxalq Türk Dünyası Festivalı

**Türk dünyasının mədəni irsini, ortaq tarixini və qardaş xalqlar arasındakı bağları gücləndirməyə yönəlmiş "II Beynəlxalq Türk Dünyası Festivalı" Ankara Keçiören Bələdiyyəsi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) birgə əməkdaşlığı ilə keçirilib. Festival müxtəlif Türk dövlətləri və toplulduqları arasında mədəni mübadiləni təşviq etməyi və ortaq dəyərləri ön plana çıxarmağı hədəfləyib.**









Üç gün davam edən festival bələdiyyə binasının önündəki Qələbə (Kalaba) Şəhər Meydanında coşqu ilə yekunlaşıb. Ənənəvi xalq rəqsi "Aşık atma" (bir növ ozan) ilə başlayan proqram Noqay türklərinin və Keçiören Bələdiyyə Konservatoriyasının sənətçilərinin çıxışları ilə davam edib.

Beynəlxalq festivala Türk dünyası nümayəndələri ilə yanaşı, müxtəlif ölkələrdən çox sayda diplomat, səfir, eləcə də siyasi partiya təmsilçiləri, millət vəkilləri, ziyalılar, vətəndaş cəmiyyətinin üzvləri, Keçiören rayon sakinləri və digər qonaqlar qatılıb.

Proqramda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Krım tatarları, Özbəkistan, Türkmənistan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti və digər Türk topluluqlarından olan kollektivlərin ənənəvi xalq rəqsləri və musiqiləri səsləndirilib. Gecənin ən diqqətçəkən qruplarından biri olan "Şuşa" musiqi qrupu səhnədəki enerjisi ilə alqışlarla qarşılanıb. Tədbirdə Azərbaycanı Türkiyədəki Səfirliyimizin nəzdindəki Mədəniyyət Mərkəzinin nümayəndələri, o cümlədən "Şuşa" musiqi qrupunun üzvlərindən ibarət 20 nəfərlik heyət təmsil edib. Rəngarəng səhnələrin nümayiş olunduğu tədbirin bağlanış mərasimində çıxış edən **Keçiören Bələdiyyəsinin sədri Mesud Özarslan** "Bu festival sadəcə bir hadisə deyil, həm də bir xatırlatmadır. Kim olduğumuzu, haradan gəldiyimizi, hara getdiyimizi və "Qırmızı Alma"mızı bir daha xatırladır" deyib. Bələdiyyə sədri öncə Türkiyədəki meşə yanğınları ilə mübarizədə həyatını itirən şəhidləri yad edib. O bildirib ki, festival yalnız şənlik xarakteri daşımır, eyni mədəniyyəti, dili, adət-ənənələri daşıyan böyük türk millətinin birliyini, rəngarəngliyini təbliğ edir, tanıdır və bu qardaşlığı əbədi yaşatmağa xidmət edir:

"Ulu Öndərimiz Atatürkün Anadoluda alovlandırdığı istiqlal məşəli Keçiörəndə yolumuzu işıqlandırır. Türk milləti olaraq bizim mübarizəmiz insanlığı yaşatmaq üçündür. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan, Krımdan Noqaylara, Kıbrıs Türk Cümhuriyyətindən Keçiörenə qədər burda əziz qardaşlarımız tarixin bizə əmanət etdiyi, atalarımızdan bizə miras qalan "birlik ruhu"nu gələcəyə daşıyır. Əl-ələ verib, tariximizin izinə düşərək, gələcəyimizə doğru birlikdə addımlayaq. Türk dünyasının çoxəsrlik arzusunu birlikdə böyüdək. Biz min illərdir varlığını davam etdirən bir millətin nümayəndələriyik. Dünyanın harasına getsək, türklərlə, türk mədəniyyəti ilə qarşılaşırıq. Bu gün mədəniyyətimizi, dilimizi, qardaşlığımızı qeyd etmək üçün burada toplaşmışıq, bundan sonra da qardaşlığımızı davam etdirəcəyik. Türkəm deyən nə xoşbəxtdir" vurğulayan M.Özarslan proqrama verdiyi töhfəyə görə "TÜRKSOY"a təşəkkür edib.

Çıxışlardan sonra M.Özarslan və üzvlər dəmir döyərək türklərin Ergenekondan çıxışını simvolik olaraq canlandırıblar. Festivalda Keçiören Bələdiyyəsi əməkdaşlarının süni intellekt texnologiyasından istifadə edərək hazırladığı türk dünyasının tarixi köklərini işıqlandıran qısametrajlı film nümayiş etdirilib və böyük maraqla qarşılanıb. Nəhəng ekranda yayımlanan filmdə Ulu Öndər Mustafa Kamal Atatürkün "Xoş gəldin Keçiören" əsəri bölgəyə toplaşan minlərlə vətəndaşın yaddaşına əbədi həkk olunub.

Qeyd edək ki, Qələbə meydanında Türk dünyasından olan müxtəlif mədəniyyətlərin tanıtımı arasında Azərbaycana aid stend də yer alıb.

Bu kimi tədbirlər, türk dünyasının zəngin irsini və birliyini dünyaya nümayiş etdirmək baxımından olduqca əhəmiyyətlidir. Ankara bu festival vasitəsilə türk dünyasının mədəniyyət qovşağı olduğunu da bir daha sübut edir. Əldə olunan uğurlar növbəti illərdə festivalın daha da genişlənəcəyinə və daha çox iştirakçı ölkənin qatılacağına işarə edir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**